

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 205 (21.866)

28 oktyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Məsud Kərbasianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında iqtisadi, ticarət, nəqliyyat, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, səhiyyə, kənd təsərrüfatı, bank, maliyyə sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark İnnes-Braunun etimadnaməsini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Qvatemala Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lars Henrik Pira Perezin etimadnaməsini qəbul edib.



## Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı qeyd olunub





Oktyabrın 27-də Türkiyə Cümhuriyyətinin yaradılmasının 94-cü ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Azərbaycan və Türkiyə Respublikalarının dövlət himnləri səsləndirilmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin yaradılmasının 94-cü ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik oxunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin müstəqillik bayramı – Cümhuriyyət elan edilməsinin 94-cü ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edərək demişdir: Bu gün Azərbaycan-Türkiyə əlaqələri inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında da faydalı əməkdaşlıq əlaqələri qurulmuşdur. Təhsil, səhiyyə, mədəniyyət, ticarət və iqtisadi sahələrdəki əlaqələrin inkişafı böyük məmnunluq doğurur. Bu günlərdə qardaş Türkiyə hökumətinin qəbul etdiyi yeni tənzimləmə qərarına görə Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinə Türkiyəyə məhsul ixracında sərbəst ticarət imkanı verilmişdir.

Ali Məclisin Sədri bu qərarı əlaqələrimizin daha da gücləndirilməsinə yönəlmiş mühüm addım kimi yüksək qiymətləndirmiş, qardaş Türkiyə Respublikasının dövlətinə və hökumətinə hörmətini bildirmiş, Cümhuriyyət bayramı münasibətilə bir daha təbriklərini çatdırmış, qardaş Türkiyə xalqına rifah və tərəqqi arzulamışdır.

Türkiyənin Naxçıvandakı Baş konsulu Nihat Ərşən çıxış edərək türk xalqının istiqlal mübarizəsindən, Türkiyə Cümhuriyyətinin yaranmasından və keçdiyi inkişaf yolundan danışmışdır. Qeyd olunmuşdur ki, Türkiyə-Azərbaycan əlaqələri bu gün sürətlə inkişaf edir, birgə layihələr həyata keçirilir. Nihat Ərşən Türkiyənin dost və qardaş Azərbaycanla əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının rolunu qeyd etmiş, bu sahədə həyata keçirilən tədbirlərin əməkdaşlığın inkişafına töhfə verdiyini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycanda fəaliyyətinin 25 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib



***Naxçıvan Dövlət Universitetində Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı fəaliyyətinin 25 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib.***

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ölkəmizdə, o cümlədən muxtar respublikada aparılan miqrasiya siyasətindən danışıb. Qeyd olunub ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın iqtisadi, siyasi və hərbi qüdrəti, beynəlxalq nüfuzu gündən-günə yüksəlməkdədir. Bu istiqamətdə qazanılan uğurlar həyatımızın bütün sahələrinin dinamik inkişafına əlverişli zəmin yaradır, Azərbaycana gələn əcnəbilərin sayı ölkənin hərtərəfli inkişafının təzahürü kimi ilbəil əhəmiyyətli dərəcədə artır.

BMqT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak çıxış edərək diqqətə çatdırıb ki, tədbirin əsas məqsədlərindən biri tələbələrin dünyada miqrasiya ilə bağlı tədqiqat aparan beynəlxalq təşkilat haqqında və eyni zamanda qurumun Azərbaycandakı fəaliyyəti barədə məlumatlandırılmasından ibarətdir. Təşkilatın rəhbəri miqrasiya probleminin mühüm cəhətlərindən söz açıb, dünyada bir milyard nəfərin iqtisadi və siyasi səbəblər üzündən miqrasiya etdiyini, mövcud miqrant axınının ən çox baş verdiyi ölkənin ABŞ olduğunu bildirib.

Qeyd edilib ki, Beynəlxalq Miqrasiya Təşkilatı Azərbaycan Respublikasının miqrasiya sahəsində çoxtərəfli formatda əməkdaşlıq etdiyi əsas tərəfdaşdır. Təşkilat 1951-ci ildə təsis edilmiş beynəlxalq hökumətlərarası qurumdur və qərargahı Cenevrə şəhərində yerləşir. Hazırda BMqT 193 üzv dövləti özündə birləşdirir. Təşkilatın gələcək fəaliyyəti 196 istiqamətlə müəyyənləşdirilib.

BMqT-nin layihə koordinatoru İlyas Nəbiyev 2015-2030-cu illəri əhatə edən davamlı inkişaf strategiyası haqqında məlumat verib. Bu proseslərin tənzimlənməsində əməkdaşlığa böyük əhəmiyyət verən ölkəmizin BMT-nin və digər beynəlxalq təşkilatların konvensiyalarına və mühüm sənədlərinə qoşulmasından danışıb, gələcəkdə 17 fəaliyyət istiqaməti üzrə proqram müəyyənləşdirildiyini bildirib. Tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

Sonda təşkilatın 25 illik fəaliyyətini əks etdirən kitab təqdim olunub.

**Səadət ƏLİYEVA**

## Növbəti açıq dərs

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda açıq dərs keçilib.***

Tədbirdə muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, Azərbaycan Ordusunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, ulu öndərin 1990-1993-cü illərdə – Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə xalqımız qarşısında ən böyük xidmətlərindən biri muxtar respublikanın təhlükəsizliyini təmin etməklə yanaşı, burada Azərbaycanın ilk milli nizami ordu hissələrini yaratmasıdır. Həmin illərdə ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul edilib.1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul olunub.

Qeyd olunub ki, bu gün ölkəmizdə ordu quruculuğu sahəsində böyük nailiyyətlər əldə edilib, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilib. Oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad qədim diyarın təhlükəsizliyini təmin edən Əlahiddə Ümumqoşun Ordunun gücünü bir daha nümayiş etdirdi.

Açıq dərsdə kursantlar "Hərb tarixində Heydər Əliyev fenomeni" filminə baxıblar.

**✍ Nail ƏSGƏROV**

# Azərbaycan-Türkiyə əlaqələri ortaq dəyərlərə və strateji tərəfdaşlığa əsaslanır



Türkiyə Cümhuriyyəti 94 il bundan əvvəl – 1923-cü ildə yaranmışdır.

1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr sazişi Türkiyənin dövlətçiliyini və gələcəyini təhlükə altında qoymuşdu. Türk xalqı ədalətsizliklə barışmayaraq 1919-cu ildə ölkədə milli azadlıq mübarizəsinə başladı. Mübarizəyə general Mustafa Kamal Atatürk rəhbərlik edirdi. Onun rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu işğalçılara sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Qələbənin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermiş, türk xalqına qardaşlıq köməyini əsirgəməmişdir.

1923-cü il oktyabrın 29-da müstəqil Türkiyə Respublikasının yaradılması bütün dünyaya bəyan edildi. Atatürkün qurduğu Türkiyə Respublikası bu gün bölgədə və dünyada inkişaf etmiş ölkələrdən birinə çevrilib. Güclü iqtisadiyyatı, qüdrətli ordusu ilə Türkiyə Respublikası hazırda beynəlxalq aləmdə öz mövqeyi olan ölkələrdən biridir. Türkiyə xalqı milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamaqla dünyanın qüdrətli ölkələri sırasına çıxmış, demokratiyanın və insan hüquqlarının bərqərar olmasına dəyərli töhfələr vermişdir.

Dünyada bir-birlərinin dövlət müstəqilliyini Azərbaycan və Türkiyə qədər dəstəkləyən və həmrəylik göstərən başqa bir nümunə tapmaq çətindir. Tarixə nəzər salsaq görərik ki, Türkiyə və Azərbaycan xalqları daim bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki dövlətin qurucularının – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Azərbaycanla Türkiyənin strateji tərəfdaşlığı hər iki xalqın eyni kökə mənsub olmasından qaynaqlanır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan-Türkiyə əlaqələrinə yüksək qiymət verərək demişdir: ***“Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri böyük tarixə malikdir. Biz tarix boyu, əsrlər boyu birlikdə olmuşuq, bərabər yaşamışıq və öz əcdadlarımızın yaratdığı milli adət-ənənələrə, mənəviyyata sadiq olmuşuq. Tarixi köklərimiz bizi birləşdirir. Əsrlər boyu öz milli mənliyimiz, milli azadlığımız, istiqlal uğrunda apardığımız mübarizə isə bizi daha da birləşdiribdir”.***

Türkiyə ilə dostluq və qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkələrimiz regionda və beynəlxalq aləmdə baş verən bütün hadisə və proseslərə münasibətdə eyni mövqedən çıxış edirlər. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük layihələr Azərbaycan və Türkiyənin dünyada söz sahibi olmasına imkan yaradıb.

Son dövrlər ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında müqavilənin imzalanması və birgə hərbi təlimlərin keçirilməsi, eləcə də Türkiyənin “G 20”-nin zirvə toplantısına Azərbaycanı dəvət etməsi və bu il Azərbaycan Prezidentinin İstanbulda keçirilən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etməsi hər iki ölkənin tarixi əlaqələrinin davamı kimi mühüm əhəmiyyətə malikdir.

Qardaş Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini müdafiə edir, Azərbaycan da öz növbəsində Türkiyənin üzləşdiyi problemlərin həllində dəstəyini əsirgəmir.

Azərbaycan-Türkiyə əlaqələrinin dinamikası Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapır. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermiş, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir.



Azərbaycan-Türkiyə əlaqələri ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf etdiriləcək, strateji tərəfdaşlığımız daha da möhkəmlənəcəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olan ölkələr yoxdur. Bu birlik bizim milli sərvətimizdir. Biz bu birliyi qoruyuruq, qoruyacağıq”.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Publik hüquqi şəxslərin yaradılması ilə bağlı atılan addımlar idarəçilikdə qabaqcıl dəyərlərin tətbiqi baxımından əhəmiyyətlidir

***2017-ci il oktyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzinin yenidən təşkili haqqında”, oktyabrın 4-də “Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində “Yaşıl Bağ” publik hüquqi şəxsin yaradılması haqqında”, oktyabrın 16-da isə “Darıdağ Arsenli Su Müalicəxanasının yenidən təşkili haqqında” sərəncamlar imzalanmışdır. Hər üç sərəncamın preambula hissəsində həmin qurumların publik hüquqi şəxs statusunda yaradılması qeyd olunur. Maraqlıdır, publik hüquqi şəxs nədir və bunun hüquqi şəxslə fərqi nədədir?***

Əvvəlcə qeyd edək ki, bu struktur ölkəmizdə yeni tətbiq olunur. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanunu 2015-ci il dekabrın 29-da qəbul edilmişdir. Qanunun qəbulundan sonra ölkəmizdə bir çox hüquqşünasların bunun izahı ilə bağlı kütləvi informasiya vasitələrində açıqlamaları olmuşdur. Geniş oxucu auditoriyasının marağını nəzərə alaraq həmin açıqlamalardan, həm də adıçəkilən qanundan müvafiq hissələri ümumiləşdirərək publik hüquqi şəxs məsələsinə bir daha aydınlıq gətirmək istərdik. Beləliklə, ilk olaraq publik hüquqi şəxs anlayışı haqqında.

Publik hüquqi şəxs anlayışı hüququn digər anlayışları ilə müqayisədə yeni termindir. Mülki hüququn digər konsepsiyalarının tarixi çox olsa da, publik hüquqi şəxs doktrinası, təxminən, 200 il bundan əvvəl Fransada inzibati dövlət quruculuğu çərçivəsində yaranıb. XIX əsrin axırlarından bir çox Avropa ölkələrində tətbiq olunmağa başlayıb və nəhayət, 1900-cü ildə kontinental hüquq dövlətləri üçün nümunə sayılan Almaniya Mülki Məcəlləsinin 80, 85 və 87-ci paraqraflarında öz əksini tapıb. Keçmiş SSRİ məkanında publik hüquqi şəxs haqqında qanunlar Gürcüstanda, Ukraynada, Moldovada və Baltikyanı ölkələrdə qəbul olunub. Ölkəmizdə isə publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi və təşkili qaydaları “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Publik hüquq dedikdə ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Publik hüquqi şəxs dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır. Hüquqi şəxs isə Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılmış müəssisə və təşkilatdır.

Qanuna görə, publik hüquqi şəxslər sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı və nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Publik hüquqi şəxs həmçinin inzibati orqan kimi ödənişli xidmətlər həyata keçirə bilər.

Hüquqi şəxslər isə “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada istənilən növ sahibkarlıq fəaliyyəti ilə, xüsusi razılıq (lisenziya) alınmasını tələb edən fəaliyyət növləri ilə yalnız belə razılığın (lisenziyanın) alınmasından sonra məşğul ola bilərlər. Bundan əlavə, publik hüquqi şəxs dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən funksiyaları həyata keçirdiyindən işçilər dövlət qulluqçusu statusuna malik ola bilərlər. Bu məsələ publik hüquqi şəxs yaradılan zaman onun nizamnaməsi ilə müəyyənləşdirilir. Hüquqi şəxsdə isə işçilər dövlət qulluqçusu statusuna malik olmurlar.

Ümumiyyətlə götürdükdə isə, ölkəmizdə dövlət idarəetməsi bir sistem olaraq daim inkişafdadır. Hamımızın bildiyi kimi, dövlət hakimiyyətində qanunvericilik, icra və məhkəmə hakimiyyəti əsas yer tutur. Burada heç bir dəyişiklik və düzəliş etmək mümkün deyil. İcra hakimiyyəti orqanları isə təsərrüfat idarəçiliyi ilə məşğul ola, gəlir götürə, pullu xidmət göstərə bilməz. Çünki vətəndaş dövlətə vergi və rüsumunu ödədikdən sonra dövlət ondan gəlir götürmək məqsədilə başqa bir ödəniş tələb edə bilməz. Burada çıxılmaz vəziyyət yaranır. Ona görə ki, iqtisadiyyat inkişaf etdikcə yeni yaranan bir sıra qurumlar dövlətin adından insanlara pullu xidmət göstərir. Belə qurumlar isə məcburdurlar ki, bu xidmətləri göstərən strukturlarına mülki hüququn adi hüquqi şəxs statusu versinlər. Adi hüquqi şəxs isə o deməkdir ki, baxmayaraq, bu qurum dövlət əhəmiyyətli funksiyaları həyata keçirir, onun əmlakı girov qoyula, bu əmlaka qarşı məhkəmə icraatı başlana, bu qurum müflis ola bilər. Publik hüquqi şəxs konsepsiyası məhz qarşıya çıxan bu maneələri aradan qaldırır.

Vurğulamaq lazımdır ki, publik hüquqi şəxs dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən funksiyaları həyata keçirir. Məhz buna görə də adi hüquqi şəxsdən fərqli olaraq, onun kifayət qədər imtiyazları var. Birincisi, publik hüquqi şəxs heç vaxt müflis ola bilməz. Publik hüquqi şəxsə qarşı məhkəmə iddiaları adi mülki qaydada yox, inzibati icraat çərçivəsində mümkündür. İkincisi, publik hüquqi şəxs həm pulsuz, həm də pullu xidmətlər göstərə, özünü maliyyələşdirə bilər, ya da zərurət olduqda büdcədən maliyyələşər. Üçüncüsü, publik hüquqi şəxsin əməkdaşları yuxarıda da qeyd olunduğu kimi, dövlət qulluqçuları ola və onun bağladığı müqavilələr mülki müqavilə yox, dövlət orqanlarının bağladıqları müqavilələr kimi inzibati müqavilə ola bilər.

Sonda onu da qeyd edək ki, publik hüquqi şəxs ölkəmiz üçün kifayət qədər yeni imkanlar yaradır ki, idarəçilik sistemini pozmadan, həmin sistemin üzvi bir hissəsi kimi yeni qurumlar yaradılsın və dövlət mövcud sistemi dəyişmədən yeni funksiyaları həyata keçirmək imkanı əldə etsin. Məhz buna görədir ki, inkişaf etmiş Avropa ölkələrində uşaq bağçalarından tutmuş orta və ali təhsil müəssisələrinə, dövlətə məxsus tibb müəssisələrinədək hamısı publik hüquqi şəxslərdir. Məsələn, Almaniyada və digər Qərbi Avropa ölkələrində hətta dəmir yolu təsərrüfatları da bu cür statusa malikdirlər. Aydındır ki, dəmir yolu müflis ola bilməz, çünki ölkə üçün həyati əhəmiyyət kəsb edən sahə sayılır. Ona görə də dövlət publik hüquqi şəxs statusu verərək bu sahənin bütün məsuliyyətini öz üzərinə götürüb. Yaxud yenə də həmin Almaniya və Fransada mərkəzi banklara publik hüquqi şəxs statusu verilib. Səbəbi isə çox sadədir – dövlət orqanlarının (bu halda mərkəzi bankların) kredit vermək və faiz hesabına gəlir götürmək hüququ olmadığı üçün onlara publik hüquqi şəxs statusu verməklə bu imkan yaradılıb. Elə ölkəmizdə də “Publik hüquqi şəxslər haqqında” Qanun qəbul olunarkən qabaqcıl Avropa dövlətlərinin bu sahədəki təcrübələri əsas götürülüb. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən yuxarıda adıçəkilən qurumların publik hüquqi şəxs kimi fəaliyyət göstərməyinə imkan verən sərəncamların imzalanması qabaqcıl dəyərlərin tətbiqi baxımından böyük əhəmiyyət daşıyır.

**Səbuhi HƏSƏNOV**

# “Nağdsız ödənişlər” mövzusunda maarifləndirici tədbir

Naxçıvan şəhərindəki Doğum Mərkəzində Naxçıvan Muxtar Respublikası Vergilər, Səhiyyə nazirlikləri, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən keçirilən tədbiri Doğum Mərkəzinin baş həkiminin müavini Nəzakət Quliyeva açaraq səhiyyə müəssisəsində belə maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb.



Tədbirdə muxtar respublika Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin əməkdaşı Elçin Babayev “Ödəniş kartları nağdsız əməliyyatlar üçün əsas vasitələrdəndir” mövzusunda çıxış edərək bildirib ki, muxtar respublika rəhbərinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”a uyğun olaraq Vergilər Nazirliyi və bank orqanları qarşısında bir sıra vəzifələr qoyulub. Bu vəzifələr sırasında maliyyə əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması, belə ödənişlərin həcminin əhəmiyyətli şəkildə artırılması, POS-terminallardan səmərəli istifadə edilməsi də vardır.

Elçin Babayev onu da qeyd edib ki, 2014-cü ildən etibarən Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə “Nağdsız ödəyin, hədiyyə qazanın” adlı həvəsləndirici tədbir keçirilir. Bu tədbir çərçivəsində ötən dövr ərzində nağdsız hesablaşmalar apararaq ödəniş edən vətəndaşların ödədikləri məbləğə müvafiq olaraq 1288 vətəndaşa 85 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib. Cari ilin sonuna kimi növbəti tirajın keçirilməsi nəzərdə tutulub.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Hafiz İsmayılbəyli “Muxtar respublikada nağdsız ödənişlər və texnoloji yeniliklər” mövzusunda iştirakçılara məlumat verib. Qeyd edilib ki, bu gün iqtisadiyyatın müasirləşməsində, şəffaf idarəetmə sisteminin qurulmasında nağdsız ödəniş sisteminin genişləndirilməsinin rolu danılmazdır. Dünya təcrübəsi də sübut edir ki, ölkənin maliyyə və sosial-iqtisadi fəaliyyətində hesabatlığın və şəffaflığın təmin edilməsi sahəsindəki mühüm tədbirlərdən biri də nağdsız ödəniş sisteminə keçiddir.

Bildirilib ki, ödəniş kartları malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, öz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçürülməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə olunan bir ödəmə aləti hesab edilir. Bu gün muxtar respublikamızda əhalinin bu cür hesablaşmalardan istifadəsi üçün lazımi şərait yaradılıb. Belə ki, bu ilin 1 oktyabr tarixinə muxtar respublika ərazisində 574-ü Naxçıvan şəhərində, 683-ü isə rayon və kənd mərkəzlərində olmaqla, cəmi 1257 POS-terminal quraşdırılıb. Cari ilin yanvar ayının əvvəlindən oktyabrın 1-dək aparılan nağdsız əməliyyatların həcmi 23 milyon 115 min 297 manat təşkil edib. Hazırda muxtar respublika ərazisində 104 bankomat, 257 min 409 ödəniş kartı vardır.

Slaydların nümayiş etdirildiyi tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Səbuhi HÜSEYNOV**

## Sağlam ailə sağlam gələcəyin təminatıdır

***"Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda növbəti tədbir Babək rayonunun Yuxarı Uzunoba Kənd Mərkəzində keçirilib. Tədbiri Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Məmmədova açıb.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada ailələr həmişə uzunömürlü olması və möhkəmliyi ilə seçilib. Bu, bir tərəfdən milli və mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasından irəli gəlirsə, digər tərəfdən sağlam ailələrin qurulması üçün dövlətimiz tərəfindən konkret işlər görülməsi, o cümlədən Ailə Məcəlləsində qızlar üçün nikah yaşının 18-ə qaldırılması, tərəflərin nikahdan əvvəl icbari tibbi müayinədən keçməsinin qüvvəyə minməsi, Cinayət Məcəlləsində qadını, xüsusən yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə məsuliyyətin müəyyən olunması və müvafiq dövlət proqramlarının uğurla icra edilməsi ilə bilavasitə bağlıdır.

Ramilə Seyidova ailələrin gələcək sağlam nəslin yetişdirilməsində mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, aparılan təhlillərə görə muxtar respublikadakı sağlamlıq imkanları məhdud uşaqların 413 nəfəri və ya 21 faizi Babək rayonunda yaşayır. Bunlardan 238-i anadangəlmə, 175-i isə sonradan qazanılma sağlamlıq imkanları məhdud uşaqlardır. Bütün bunlar onu göstərir ki, sağlam ailənin formalaşması üçün tərəflər sağlam həyat tərzi yaşamalı, nikaha daxil olarkən həkim müayinəsindən keçməli və sonrakı dövrdə qadınların reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva "Hamilə qadınların qidalanması, gigiyenası və qadınlarda virus hepatitlərinin fəsadları" mövzusunda çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Babək rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Maarifləndirici görüş təşkil edilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Gülüstan türbəsi" mövzusunda maarifləndirici tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və muxtar respublika Dövlət Miqrasiya Xidməti tərəfindən təşkil olunan tədbiri giriş sözü ilə xidmətin əməkdaşı Elvin Cavadov açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova Gülüstan türbəsi tarixi abidəsi haqda tədbir iştirakçılarına ətraflı məlumat verib.

Videoslaydın nümayiş olunduğu tədbirdə bildirilib ki, Culfa rayonu ərazisində yerləşən Gülüstan türbəsi Azərbaycanın memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Dünya əhəmiyyətli Gülüstan türbəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən elmi və tarixi əsaslarla bərpa olunub. Türbənin bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də restavrasiya zamanı hər bir detala xüsusi diqqət yetirilib, abidənin orijinallığı qorunub saxlanılıb.

Sonra tədbir iştirakçıları Gülüstan türbəsi tarixi abidəsini ziyarət ediblər.

**Xəbərlər şöbəsi**

***Son illər ərzində Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji tədqiqatlar bir daha sübut etdi ki, Cənubi Qafqazın ən qədim abidələri Naxçıvan ərazisindədir. Bunlardan Neolit abidəsi olan I Kültəpə, İlk Eneolit dövrünə aid yaşayış yerləri, yalnız Naxçıvana xas olan Orta Tunc dövrünə aid qalalar buna misal ola bilər. Min illər boyu tarixin sirlərini özündə qoruyub saxlayan abidələrimizdən biri də Qaraqaya yaşayış yeridir.***

*Axtarışlar, tapıntılar*

## Qaraqaya yaşayış yerində antik dövrə aid maddi-mədəniyyət qalıqları aşkarlanıb



Maraqlıdır ki, "Qaraqaya", "Qaradaş" toponimi Naxçıvan ərazisində həddən artıq çoxdur. İntruziv mənşəli bu oronim (dağ-dərə adları) kaha və qayaaltı sığınacaqları, yaxınlığında olan su qaynaqları ilə qədim insanların nəzərini cəlb etmiş, həmin ərazidə məskən salmışlar.

Yeni aşkarladığımız bu abidə Şahbuz rayonunun Ayrınc və Qızıl Qışlaq kəndləri arasında, Küküçayın sol sahilindədir. Rənginə görə "Qaraqaya" adlanan, çox hündür olmayan bu qaya isə Küküçayın sağ sahilindədir. Qayanı və yaşayış yerini ayıran Küküçay bu hissədə, demək olar ki, 90 dərəcəlik bucaq altında dönür. Küküçay və onun ətrafındakı ağaclıq, burada olan bulaqlar həm yerli əhalinin, həm də kənardan gələnlərin istirahət üçün düşərgə salmasına səbəb olur.

Yaşayış yeri Qaraqayanın şərq hissəsindəki maili yamacı əhatə edir. Onun ərazisi 7-8 hektara yaxındır və bir neçə yerdən quru çay dərəsi ilə parçalanmışdır. Dərələrin məcrası az olub, şərq hissədəki dağlardan başlayır və sığınacaqlar formalaşdırır. Bu sığınacaqlardan hazırda arxac kimi istifadə edilir.

Yaşayış yerinin şimal-cənub istiqamətində iki böyük terras düzəldilmişdir. Terrasların ətəyində antik dövrə aid keramika parçaları mövcuddur. Buradakı



keramikalar qaba qum qarışığından bişirilmiş, bəziləri az cilalanmışdır. Yaşayış yerinin orta hissəsində olan kiçik təpə tirəsinin üzərində antik dövrə aid böyük keramika qırıqları üstünlük təşkil edir. Buradakı keramika, əsasən, kirəmit parçalarıdır. Kirəmitin üstünlük təşkil etməsi yaşayış yerinin mədəni cəhətdən inkişaf etmiş bir məskunlaşma mərkəzi olduğunu göstərir. Babək rayonunun Nəcəfəlidizə qalasında, Sirab kəndindəki Qara Təpə və Nuvars və digər abidələrdə aşkarlanan kirəmit parçaları antik dövrə aiddir. Burada müxtəlif tikililərin qalıqları, daş komaları mövcuddur. Binalar dördkünc formalıdır.

Abidənin şimal hissəsindəki iki təpənin birinin üzərində 24 kvadratmetr ölçülü, dördkünc formalı binanın qalıqları mövcuddur. Bina dağ daşlarından inşa edilmişdir. Ətrafda maddi-mədəniyyət nümunələri olmadığı üçün dövrünü təyin etmək mümkün deyil.

Kiçik bir keçidlə birləşən ikinci təpə abidənin ən maraqlı hissəsidir. Şiş zirvəli bu təpənin yamacı çox dik, qumlu-çınqıllı olub bitki örtüyü yox dərəcəsindədir. Təpənin yamacında müxtəlif kasa, çanaq, çölmək kimi qabların qırıqları səpələnmişdir. Təpənin yuyulmağa meyilli olmasına baxmayaraq, maddi-mədəniyyət qalıqlarının ən zəngin olduğu ərazidir. Keramikalar, əsasən, boz-qonur, çəhrayı rəngdə olub, narın qum qarışığından bişirilmiş, yaxşı cilalanmışdır.

Buradan aşkarlanan keramika, xüsusən bir ədəd solğun çəhrayı rəngli, üzəri anqoblu keramika Son Neolit, Orta Tunc keramikasına bənzəyir.

2017-ci ilə kimi Şahbuz rayonu ərazisində Eneolit və əvvəlki dövrlərə aid abidə aşkarlanmamışdı. Həmin il aşkarlanan "Sələsüz", "Dərəşahbuz" abidələrindən sonra bu, üçüncü qədim abidədir.

**Zaleh NOVRUZOV**

***"Təhsil millətin gələcəyidir",** – deyən ulu öndər Heydər Əliyev xalqın, millətin gələcəyini savadlı, bilikli, hərtərəfli dünyagörüşə malik intellektual gənclərdə görürdü. Dahi rəhbərin siyasi ideyaları ilə inamla addımlayan ölkəmizdə, eləcə də muxtar respublikamızda bu gün təhsilin inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması işi təhsil sahəsində görülən tədbirlərin önündə dayanır. Görülən işlər gələcəyimiz olan gənclərin savadlı, bilikli, cəmiyyətə faydalı vətəndaş kimi yetişmələrinə xidmət edir.*

*Təhsil millətin gələcəyidir*

## Məktəbəhazırlıq qruplarının fəaliyyətinə hərtərəfli şərait yaradılıb





Ötən il oktyabr ayının 3-dən etibarən muxtar respublikanın ümumtəhsil müəssisələrində məktəbəhazırlıq qrupları yaradılıb. Hazırda 127 məktəbdə 184 qrup fəaliyyət göstərir. Cari ildə muxtar respublikada, ümumilikdə, 3156 beşyaşlı uşaq ödənişsiz əsaslarla məktəbəhazırlıq qruplarına cəlb edilib. Bəs məktəbəhazırlıq qruplarının işi necə təşkil edilib? Uşaqlar bu mərhələ vasitəsilə nə əldə edə bilirlər? Elə bu suallara cavab tapmaq üçün Naxçıvan şəhərində fəaliyyət göstərən bir neçə ümumtəhsil müəssisəsində olduq.

İlk baş çəkdiyimiz ünvanda, Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbdə məktəbəhazırlıq qrupu ilə tanışlığımız maraqlı anlarla yadda qaldı. Məktəbin direktoru Sevil Salayeva bildirdi ki, həftənin ilk 4 günü ərzində, hər gün 2 saat müddətində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarının əsas məqsədi uşağın məktəbə hazırlıqla əlaqədar psixoloji dayanıqlılığını artırmaq, əhatə olunduğu aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdir. Hazırlıq qrupuna 5 yaşı tamam olmuş uşaqlar qəbul edilib.

Sevil Salayeva onu da bildirdi ki, tədris məşğələləri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi proqrama əsasən keçirilir. Dövlətimiz tərəfindən məşğələlərin keyfiyyətli təşkili üçün lazımi şərait yaradılıb, pulsuz əyani vəsaitlər müəllim və uşaqların ixtiyarına verilib. "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi" və "Fiziki mədəniyyət" adlı məşğələlər uşaqların erkən yaş dövründən məktəb dərslərinə hazırlanmaları üçündür. Gündəlik 3 məşğələ təşkil olunur. Hər məşğələnin müddəti 30, məşğələlərarası fasilə 10 dəqiqədir. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmayıb. Bu qruplarda məşğələlər təcrübəli ibtidai sinif müəllimlərinə həvalə edilib.

Məşğələni aparan müəllim Sevinc Əliyeva dedi ki, əvvəllər uşaqlar məktəbəqədər və məktəbəhazırlıq mərhələlərini keçmədən birbaşa məktəbə qəbul olunurdular. Bu da, təbii ki, həmin uşaqların keçilən dərsləri daha gec qavramalarına səbəb olurdu. Yaranan çətinlikləri müəllimin işini xeyli çətinləşdirir, tədris prosesini ləngidirdi. Müəllim dərs vaxtının əksər hissəsini hazırlıqsız uşaqlara həsr edir, fəal uşaqlar diqqətdən kənarda qalırdılar. Bütün bunlar tədrisin səviyyəsinə də təsir edirdi. Ötən ildən fəaliyyət göstərməyə başlayan məktəbəhazırlıq qrupları isə bu prosesi xeyli təkmilləşdirib. Bu da təkcə valideynlərin deyil, ibtidai sinif müəllimlərinin də işini asanlaşdırıb.

Üz tutduğumuz növbəti ünvan Naxçıvan şəhər 4 nömrəli tam orta məktəb oldu. Təhsil ocağına gəlişimiz məktəbəhazırlıq qrupunda təşkil edilən "Məntiqi və riyazi təfəkkürün inkişafı" məşğələsinə təsadüf etdi. Öyrəndik ki, ötən il bu təhsil ocağında bir məktəbəhazırlıq qrupu fəaliyyət göstərib. Lakin cari ildə uşaq sayı nəzərə alınaraq iki qrup yaradılıb. Qruplardan birində məşğələnin gedişini izlədik. Müəllim Xalidə Cabbarova elektron lövhə və digər müasir tədris vasitələri ilə məşğələ aparır, uşaqlar isə maraqla izləyir, başa düşmədikləri ilə bağlı suallar verirdilər. Müəllim verilən sualları dolğun cavablandırır, dərsi təmkinlə izah edirdi. Məşğələnin gedişini izləmək, uşaqların hərəkətlərini müşahidə etmək maraqlı idi. Onlardan bəziləri suallara tez cavab vermək üçün lövhənin qarşısına keçir, kimisi yerindən cavab verir, bir-birləri ilə sanki "bilik yarışı" keçirirdilər. Görünən o idi ki, burada uşaqlar üçün sərbəst mühit yaradılıb, bu da onlara fikirlərini rahat ifadə etməyə imkan verir, nitq qabiliyyətlərinin formalaşmasına şərait yaradır.

Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbdə də digər təhsil ocaqlarında olduğu kimi, tədris prosesi öz axarı ilə davam edirdi. Fərq isə onda idi ki, burada təşkil edilən məşğələdə müəllim və uşaqlardan əlavə, valideynləri də görmək mümkün idi. 17 uşaqdan ibarət məktəbəhazırlıq qrupunun müəllimi Fəxriyyə Məmmədovanın apardığı məşğələ təsviri fəaliyyətlə bağlı idi. Simuzər Abbasovanın valideyni Elmin Abbasov məşğələdə iştirak edirdi. O dedi ki, məktəbəhazırlıq qrupunun yaradılması bütün valideynlər kimi, onun da ürəyincədir. Əmindir ki, övladının məşğələlərdə iştirakı məktəbə gedəndə dərsləri yaxşı qavramasına imkan verəcək. Yaradılan şəraitə görə isə dövlətimizə minnətdar olduğunu vurğuladı.

Məşğələyə qatılan balaca Nərminin valideyni Anar Əliyevlə də həmsöhbət oldum. O bildirdi ki, məktəbəhazırlıq qrupuna övladını yazdırması bir valideyn olaraq onun işini asanlaşdırıb. Çünki burada övladı həm məktəbə uyğunlaşır, həm dünyagörüşünü artırır, eyni zamanda da dərsə marağı, məktəblə tanışlığı onda müsbət keyfiyyətlər yaradır. Müəllimlər də övladının bilik səviyyəsi, qavrayışı haqda ona danışırlar. Bütün bunlar imkan verir ki, qarşıdan gələn dərs ilinə övladı tam hazır olsun.

Bəli, bu gün ölkənin uşaq, yeniyetmə və gəncləri qayğı ilə əhatə olunublar. Onlar hər cür şəraitə malik bağçalara gedir, müasir standartlara uyğun məktəblərdə təhsil alır, gələcəyə inamla baxırlar. Bütün bunlar dövlətimiz tərəfindən yaradılan imkanlar hesabına mümkün olur.

**✍ Nail ƏSGƏROV**



**Şahbuz rayonu Naxçıvanın təbiət muzeyidir. Rayonun zəngin flora və faunası, təmiz havası, saf suyu, min bir dərdin dərmanı olan meyvələri vardır. Xüsusilə də payız fəslinin bu bərəkətli çağında Şahbuzun meyvə bağları, el dilində desək, "adamın üzünə gülür". Özünəməxsus dadı, müxtəlif çeşidləri ilə seçilən alma, cəviz, badam, armud, ərik, üzüm və bu kimi meyvələr Şahbuz bağlarının bəzəyidir. Mövsümün bu vədəsində Şahbuza yolu düşən hər kəs bu əvəzsiz təamları dada bilər.**

*Yurdumuzun nemətləri*

# Şahbuzun cəviz bağlarından bol məhsul toplanır



Şahbuz kəndlərində hər həyətdə meyvə ağacları vardır. Bu meyvə ağacları içərisində ruzi-bərəkət rəmzi sayılan cəviz özünəməxsus yer tutur. Rayonda yetişdirilən "kətanköynək cəviz", "suqrayı cəviz", "nazikqabıq cəviz", "daş cəviz", "kövrək cəviz", "püstəqabıq cəviz", "badamı cəviz", "yağlı" və "yağsız" cəviz sortları süfrələrin bəzəyinə çevrilib. Keyfiyyətinə, dadına görə bu məhsullara üstünlük verənlər çoxdur. Son illər dövlətin meyvəçiliyə ayırdığı diqqət bu rayonda da özünü qabarıq göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin meyvəçiliyin inkişafı ilə bağlı qəbul etdiyi dövlət proqramları cəviz əkininə marağı daha da artırıb. Hazırda dövlət qayğısı sayəsində Şahbuz rayonunda yeni-yeni cəviz bağları salınır. Təkcə ötənilki payız iməciliklərində rayonun İşgəsu massivindəki 3 hektarlıq ərazidə yeni cəviz bağı salınıb, 1100 cəviz tingi əkilib.

Cəviz ağacı ata-babamızdan ruzi-bərəkət, bolluq nişanəsi kimi bizə miras qalıb. Yəni cəviz təkcə quru meyvə deyil, həm də böyük mənəvi gücə malikdir. El arasında belə bir deyim var: "5-6 cəviz bir çörəyi əvəz edir". Cəviz xalq təbabətində geniş istifadə olunur. İnsan beyninin kiçik formasını xatırladan cəviz vitamin və proteinlərlə zəngindir. O, qandakı xolesterinin səviyyəsini azaldır, ürək döyüntüsünü tənzimləyir. Onun tərkibindəki maddələr immuniteti gücləndirir, qan-damar sistemini stabilləşdirir, ürək xəstəlikləri riskini azaldır. Cəvizin meyvəsinin içində el arasında "qərzək" adlanan nazik qabığı olur ki, hələ qədimdən onu dəmləyib içmək böyrək daşlarının təmizlənməsində əhəmiyyətli vasitə olub.

Şahbuz rayonunun Ağbulaq, Gömür, Kükü, Biçənək, Külüs, Keçili, Nursu və digər kəndləri cəviz bağlarının və yetişdirilən müxtəlif cəviz sortlarının çoxluğu ilə seçilir. Yazını hazırlayarkən bu kəndlərin bəzilərini gəzib cəvizin toplanması, saxlanması və məişətimizdəki yeri ilə bağlı sakinlərin fikirlərini öyrəndik. Qızıl və Güney Qışlaq kəndlərində cəviz ağacı əkilməyən həyətə, demək olar ki, rast gəlmədik. Hər həyətdə 4-5 cəviz ağacı var. Kənd əhalisinin böyük hissəsi güzəranını bu meyvədən çıxarır, onu toplayır, satır, evinə ruzi aparır. Adətən, cəviz tinglərinin xüsusiyyəti belədir ki, əkiləndən 10-15 il sonra məhsul əldə edilir. Amma Qızıl Qışlaq kəndində xüsusi bir cəviz növü var ki, bir yaşında bar verir. Kənddə yaşlı cəviz ağacları üstünlük təşkil edir. Sakinlərin dediklərinə görə, onlar o qədər böyükdür ki, çırpmaq mümkün deyil, yalnız külək əsəndə və yağış yağanda özözlüyündə meyvələri tökülür. Kənddə yeni cəviz sortları da əldə edilib. Onlar həm çox böyümür, həm də məhsuldar olur. Həmçinin kənddə yetişən "salxım cəviz" adlanan cəviz növü üzüm salxımını xatırladır və çox barlıdır. Bundan əlavə, burada "qırğı cəviz", "yastı cəviz" adlandırılan cəviz sortları tərkibinin vitaminlə zənginliyi baxımından əhəmiyyətlidir.

Maraqlıdır ki, bu kənddə əhalinin "Cəviz piri" adlandırdığı bir yer var. Kənddə əkilən ilk cəviz ağacının yaxınlığında yerləşən bu pir kənd sakinləri üçün çox müqəddəs bir yerdir. Ümumiyyətlə, cəviz ağacı keçmişdən bu günə qədər müqəddəslik rəmzi sayılıb. El arasında belə deyilib ki, soyuqda qalsan da, gərək cəviz ağacını kəsməyəsən. Cəvizlə bağlı yaranan deyimlər, inanclar əsrlərdir ki, məişət mədəniyyətimizə, folklorumuza ayaq açıb: "Cəviz ağacı olan yerdə aclıq olmaz", "Cəviz ağacı el ağacıdır, hər kəs üçündür".

Məlumdur ki, cəvizdən həm də milli mətbəximizin çeşidli təamlarının hazırlanmasında istifadə olunur. Qızıl Qışlaq kəndinin sakini Zibayət Göyüşova milli mətbəximizdə cəvizin tutduğu yerdən danışdı: "Kəndimizdə belə bir adət var ki, Novruz bayramında süfrəyə düzülən şirniyyatların demək olar ki, hamısında cəvizdən istifadə olunmalıdır. Ona görə də hər il cəviz tədarük edərkən "bayramlıq cəviz" payı ayrılır və Novruz bayramına qədər ona toxunulmur. Yaxud da Xıdır bayramında papaqatma kimi gözəl bir adətimiz var. Ata-babadan görmüşük ki, papağa daha çox cəviz qoyular. Analarımız, nənələrimiz cəvizdən kəsmə, alana, nabat, şəkərbura, paxlava və bu kimi çeşidli şirniyyatlar hazırlayardılar. Bu şirniyyatlar bu gün də süfrələrimizin bəzəyidir. Zibayət xala onu da dedi ki, bundan əlavə, kəndimizin səfalı çöllərində bitən yemişan meyvəsinin cəvizlə hazırlanan mürəbbəsi həm ləzzəti, həm də tibbi əhəmiyyəti baxımından qiymətlidir. Belə ki, həmin mürəbbə ürək-qan damar sisteminin fəaliyyətini yaxşılaşdırır. Naxçıvan mətbəxinə məxsus dadlı təamlardan sayılan "Naxçıvan çöçəsi"nin də əsas tərkib hissəsini cəviz təşkil edir. Cəviz mürəbbəsi isə bu meyvədən hazırlanan təamların, demək olar ki, "şahı"dır. El arasında deyirlər ki, cəvizin mürəbbəsini gərək "sümüklənməmiş", yəni bərkiməmiş hazırlayasan.

Şahbuz rayonunun cəviz ağacları ilə zəngin bir bölgəsi də dağların əhatəsində yerləşən Kükü kəndidir. Hələ qədimdən bu kənddə müxtəlif meyvə sortları əkilib, torpağa uyğunlaşdırılıb. Məlumdur ki, dillər əzbəri olan Kükü alması artıq brend məhsula çevrilib. Bu kəndin çeşidli alma və cəviz sortları meyvəçiliyin kənd sakinlərinin başlıca məşğuliyyət sahələrindən biri olduğunu təsdiq edir. Kəndin meyvəçiliklə məşğul olan sakini Yunis Quliyevlə həmsöhbət olduq. O, kənd məktəbində kimya müəllimi işləyir. Eyni zamanda arıçılıq və meyvəçiliklə məşğul olur. Yunis müəllim cəviz ağaclarının özünəməxsus xüsusiyyətlərindən, eləcə də bu meyvənin əhəmiyyətindən danışarkən dedi ki, bizim cəviz ağaclarımız məhsuldar olur, həm də uzun müddət yaşayır. Mənim bağımda, təxminən, 15 cəviz ağacı var. Onlardan bir neçəsi qocaman ağacdır, əkildiyi vaxt yadıma gəlmir. Çünki atamın, babamın vaxtından əkilib. Cəviz uzunömürlü ağacdır. Salınandan 10-15 il sonra bar verir. Amma ərsəyə gəldikdən sonra bir neçə nəsil onun barından bəhrələnə bilir. Necə deyərlər, cəviz ağacı el ağacıdır. Bizim kəndin sakinləri ötən əsrin 90-cı illərinin o çətin dövrlərində – qazın, işığın olmayan vaxtında da cəviz ağaclarını kəsib odun etmədilər, əksinə, yeni tinglər əkdilər. Çünki cəviz ağacı ruzi-bərəkətdir. İndi də, çox şükür, o vaxt əkdiyimiz cəvizin məhsulunu toplayırıq. Onu da deyim ki, dövlətin meyvəçiliyin inkişafı, cəviz əkini üçün yaratdığı şərait məni daha da ruhlandırıb. Hər il bağımda yeni cəviz tingləri əkirəm. Çünki sərfəlidir.

Yunis müəllimin toxunduğu bu mövzuyla bağlı yadıma Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan Abbasqulu ağa Bakıxanovun "Xeyirli işin faydası" adlı mənzum hekayəti düşdü. Əsərdə deyilir ki, bir hökmdar bağında cəviz ağacı əkən qocaya yaxınlaşır. Onun zəhmət çəkdiyini görüb deyir ki, ey qoca, bu qədər zəhmət çəkməyin faydasızdır. Sənə uzun ömür lazımdır ki, bu ağacın meyvəsindən dadasan. Qoca isə cavabında belə deyir:

*Başqaları əkdi, yedik, nə olar?*
*İndi də biz zəhmət qəbul edərək*
*Nəsillərçin cəviz ağacı becərək.*
*El üçün kim girişərsə bir işə,*
*Özü dəxi xeyir görər həmişə.*

Cəviz uzun müddət saxlanılır, amma keyfiyyətini itirmir. Onun özünəməxsus saxlanma qaydası var. Bununla bağlı Yunis müəllim ətraflı danışdı: "Nənə-babalardan eşitmişik ki, cəvizi yaxşı qurutduqda onu bir neçə il saxlamaq olur. Qurudarkən günəşli yox, kölgəli yer seçilməlidir ki, meyvəsi daha keyfiyyətli qalsın. Bizdən əvvəlki təcrübəli insanlardan öyrənmişik ki, cəvizi bir neçə il keyfiyyətli saxlamaq üçün həm də arasına quru cəviz yarpaqları qoymaq lazımdır. Çünki quru cəviz yarpağının tərkibindəki maddələr məhsulu zərərverici bakteriyalardan qoruma xüsusiyyətinə malikdir. Yadımdadır, nənəm yayda evimizdəki xalçaları yığışdırıb götürəndə onların arasına cəviz yarpaqları qoyardı ki, xalçaya güvə düşməsin".

Cəvizin meyvəsi kimi, onun yarpağının da faydası çoxdur. Belə ki, cəviz yarpağının çayından mütəmadi olaraq istifadə bədəndə olan mikrob, bakteriya və toksinlərdən xilas olmağa kömək edir, qanda şəkərin miqdarını azaldır. Keçmişdə cəvizin "qacaq" hissəsindən boyaq maddəsi kimi də istifadə olunub. Qaynadılaraq ondan müxtəlif rəng çalarları alınıb. Bu boyaların əlvanlığı, davamlılığı illərin ilmə yaddaşı, xalq təfəkkürümüzün, el sənətimizin gözəl nümunələri olan xalçalarımızın ilmələrində bu gün də yaşayır.

Cəvizin oduncaq hissəsi tarixən xalq sənətkarlarının yaratdıqları müxtəlif əl işlərinin ən qiymətli xammalı hesab olunub. Bundan başqa, cəviz ağacının gövdəsindən milli musiqi alətlərinin hazırlanmasında geniş istifadə olunur. Belə ki, əksər simli milli musiqi alətlərinin qolu və aşıq hissəsi cəviz ağacından hazırlanır. Belə alətlər həm gözəl səslənməsi, həm də uzunömürlülüyü ilə seçilir. Bu cür musiqi alətləri haqqında məlumatlara folklorumuzda, şifahi xalq ədəbiyyatımızda da rast gəlmək olur. Belə bir tapmacaya diqqət edək:

*Qoz ağacın oyarlar,*
*Üstünə tel qoyarlar,*
*Vaxtsız durub ağlasa,*
*Qulağını burarlar.*
*(Kamança)*

Cəviz ağacının özünəməxsus cəhətlərindən biri də odur ki, susuz ərazilərə bir neçə cəviz ağacı əkib, ona qulluq göstərib ərsəyə gətirdikdən sonra həmin ərazidə su yaranır. Bunun səbəbi cəvizin köklərinin torpağın tərkibindəki suyu çəkməsi ilə bağlıdır. Yunis müəllim deyir ki, kəndimizdə Bürcəli kişinin ulu babasının əkdiyi cəviz ağacı bu kəndin ilk cəviz ağaclarından biridir. Babam danışardı ki, həmin ağac ərsəyə gəldikdən sonra onun yaxınlığında bulaq çıxmağa başladı. Həmin bulaq bu gün də qalır. Bəzi yaşlı sakinlər ona "cəvizli bulaq" da deyirlər.





Kəndin 83 yaşlı sakini Quşdan Qəhrəmanov deyir ki, uzun və sağlam həyat yaşamaq üçün səhərlər acqarına cəviz yemək lazımdır. Bizim kəndimizin iqlimi sərin olduğuna görə burda cəviz gec yetişir və meyvəsi saf olur. Kəndimizdə cəviz oktyabr-noyabr aylarında yığılır. Cəvizi yığmağın da xüsusi qaydası var. Ata-babadan eşitmişik ki, cəvizi mütləq çırparaq yığmalısan, yoxsa gələcək ildəki məhsul azala bilər. Amma çırparkən budaqlarının zədə almamasına diqqət yetirmək lazımdır.

***Hazırda Şahbuzun cəviz bağlarından bol məhsul yığılır. Kimi həyətində yenicə yığdığı cəvizi sərərək qurudur, kimi onu kisələrə doldurub qışa azuqəlik edir, kimi tələbatdan artığını bazara çıxarır, kimi də torba-torba qohum-əqrəbasına, dost-tanışına sovqat göndərir. Şahbuz kəndlərində elə ailələr var ki, hər il tonlarla cəviz satır, dolanışığının bir hissəsini də məhz bu hesaba təmin edir. Bir sözlə, sorağı el-el gəzən Şahbuz cəvizi də Naxçıvanın brend məhsuluna, ruzi-bərəkət rəmzinə çevrilib. Bu nemətin qədrini bilənlər, onu əkənlər isə bundan sonra da bol məhsul götürəcəklər.***

**Sahilə ARİFQIZI**
*jurnalist, Şahbuz rayonu*

*Cəviz piri*







**ŞƏRQ qapısı**
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 869